

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 sentyabr 2021-ci il №71 (2579) https://mod.gov.az Qiyməti 30 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Heç bir qüvvə bizi dayandıra bilməz”



Ermənistan işğalçı dövlət kimi tanınsa da onu diplomatik vasitələrlə qınayan dövlətlər az olmuşdu. Belə vəziyyət işğalın sonlanmasında siyasi təsir vasitəsi ola bilmədi. BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin 28 ilə həll edə bilmədiyi münaqişəni Azərbaycan Ordusu döyüşlə 44 günə həll etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində xalqa müraciətində belə demişdi: "Heç bir qüvvə bizi dayandıra bilməz". Qadir ordumuz Ali Baş Komandanın qətiyyətlə dediklərini yerinə yetirdi. Dünya ictimaiyyəti də, Azərbaycanın ədalətli müharibəsinə bəşəri niyyətlə baxan dövlətlər də, işğalı, işğalçını gizlin-aşkar dəstəkləyən dövlətlər də gördülər ki, məqamında Azərbaycanın "hər daşından alov dilli ox olur". Məqam 2020-ci ilin 27 sentyabrı oldu.

Vətən müharibəsi Zəfərlə başa çatandan az sonra işğaldan azad edilmiş ərazilərimizdə söhbətləşdiyim əsgərlərdən biri demişdi ki, daha heç bir dövlət cəsarət edib bizim ərazilərimizə göz dikə bilməz. Başqa hərbi hissədə xidmət edən əsgərlərin düşüncələri də həmin əsgərin düşüncələrinin eyni idi. Əvvəllər də, indi də yaşadığımız qürurun Vətən sevgisinə söykəndiyini bilirik. Zabitlərin əsgərlərə sevgi bildiyimiz kəlmələrinə görə də qürurlanırıq. Bu qürurun eynini zabit Pərviz İbrahimovun "Şuşada döyüşçülərin təbrikləşməsi mənim də ürəyimi dağa döndərdi. Həm qələbəyə görə, həm qələbə qazananların arasında olduğuma görə, həm də qaliblərin bir-birini bu səviyyədə doğması bildiyinə görə..." kəlmələrindən sonra da yaşamışdım...

Vətən müharibəsindən əvvəl ön xətdə, səngərlərdə əsgərlərin döyüş əzmini, qələbə ruhunu Ali Baş Komandanın döyüş əmrinin əsgəri bilmişdim. Həmin vaxtlarda döyüş növbətçiliyindən qayıtmış əsgər Samir Əkbərov demişdi ki, sıra hazırlığı da, nizamnamələri öyrənmək də, hərbi bilikləri mənimsəmək də, öyrəndiklərini təlimlərdə möhkəmləndirmək də, döyüş növbətçiliyi də, torpaqlarımızın işğaldan azad edilməsi də qələbə üçündü. Ali Baş Komandanın döyüş əmri ilə döyüşəcəyik, qələbə qazanacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik.

Əsgərin dedikləri ətrafdakı əsgərlərin də baxışlarını qarşı yaxaya yönəltmişdi. Mənim baxışlarım əsgərlərin dönməz baxışlarına sarılmışdı. Onda zabit Cabir Muradov demişdi ki, atam Birinci Qarabağ müharibəsi iştirakçısıdı. Onun müharibə xatirələri ilə cavanlaşmışdıq. Bu xatirələr orta məktəbi bitirəndə də peşə seçimimdə gərəkli oldu. Hərbçi olmaq istədiyimi bildirəndə atam bir anlığa üzümə baxdı, sonra divardakı şəkilə. "Onların əvəzindən sən döyüşərsən, oğul. Onların döyüş yolunu sədaqətlə davam etdirərsən...", - dedi və davamlı baxışları üzümə dikildi. Bu baxışları həm xeyir-dua bildim, həm də şəhidlərə ehtiram. Bu kəlmələşməni əsgərlərimizə də danışmışam. Onlar da Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə şəhidlərin ruhunu da döyüşənlərin sırasında biləcəklər. Onların da əvəzindən döyüşəcəklərini deyirlər...". Bu söhbətdən az sonra Vətən müharibəsi başladı. Zabit Cabir Muradovla döyüşlərdə də görüşdük. Həmin söhbəti xatırlatdım. Gülümsündü. Əlini xəyalları uzaqları dolaşan əsgərin çiyninə qoydu. "Vətən müharibəsindən əvvəl bu əsgər məndən eşitdiyi həmin söhbəti xatırlatmadan dedi ki, mən də, əsgər yoldaşlarım da təkcə öz əvəzimizdən deyil, həm də şəhidlərin əvəzindən döyüşəcəyik...". Bu kəlmələri Azərbaycanın haqq savaşına əsgər qətiyyəti bildim. Onda əsgər Kərim Mirzəyevin dediyi kəlmələr də bizə könül xoşluğu verdi: Biz hərb istəmirik, hərbə hazırıq! Yəni Azərbaycanımız tolerant dövlətdir, müharibə istəmir. Ancaq ərazilərimizə tamahlananları susdurmağa qətiyyətimiz də var, gücümüz də.

Azərbaycan Ordusu döyüşürdü. Bu döyüş vətənpərvərliyin işğalçılıqla döyüşüydü. Müharibələr tarixi təsdiqləyir ki, işğalçılıq müvəqqəti qələbə qazana bilər, ancaq qəti qələbə vətənpərvərliyindir.

Vətən müahribəsindən az sonra işğaldan azad edilmiş ərazimizdə zabit Ruslan Novruzovla söhbətləşəndə demişdi:

- Əsgərlərimiz indi də döyüş növbətçiliyi aparırlar. Bu növbətçilik Vətən müharibəsindən əvvəlki döyüş növbətçiliyindən fərqlənir. Əvvəllər bu növbətçiliyin mahiyyəti Ali Baş Komandanın əmri ilə döyüş növbətçiliyindən döyüşə səngərdən getməyə niyyəti idi. Ermənilik səbəbindən başlayan müharibəyə görə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na kimi döyüş növbətçiliyi olmadı. Zəfərdən sonra aparılan döyüş növbətçiliyinin mahiyyəti ərazi bütövlüyümüzü qorumaqdı.

Vətən müharibəsi başlayanda dünya dövlətlərinin əksəriyyəti bu müharibənin işğalı sonlandırmaq üçün aparıldığına haqq qazandırdı, bəziləri müharibənin dayandırılmasını israr etməklə işğalı qeyri-rəsmi dəstəklədi.

(Ardı 3-cü səhifədə)



Əlahiddə Ümumqoşun Ordunun HHM birləşmə, hissə və bölmələrində kompleks məşq keçirilib

3-cü səhifədə



Azərbaycan oğullarının Belarusdakı qəhrəmanlıqları heç vaxt unudulmayacaq

5-ci səhifədə



Tarixdə əbədiləşən şəhid qardaşlar

6-cı səhifədə



Şəhidlik əbədiyyət zirvəsidir

8-ci səhifədə

# Müdafiə Nazirliyinin rəhbərliyi Rabitə qoşunlarının hərbi hissəsində olub





*Ali Baş Komandanın tapşırığına əsasən, Azərbaycan Ordusunun rabitə sistemləri imkanlarının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlər davam edirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 8-də Müdafiə Nazirliyinin rəhbərliyi Rabitə qoşunlarının hərbi hissələrindən birində olub.

Nazirliyin rəhbər heyəti rabitə nəqliyyat vasitələri, texnikaların cari və orta təmiri üçün nəzərdə tutulmuş laboratoriyalar, o cümlədən digər xidməti, inzibati otaqlar və anbarlara baxış keçirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənova döyüşün idarə edilməsi üçün silahlanmaya yeni qəbul edilmiş müxtəlif növ təkərli nəqliyyat vasitələrinin bazasında quraşdırılmış komanda-qərargah maşınlarının təminatı, təyinatı, döyüş imkanları barədə məruzə edilib.

Müdafiə naziri Azərbaycan Ordusunda rabitə işinin daha da təkmilləşdirilməsi ilə əlaqədar komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Müdafiə naziri Rusiya sülhməramlılarının komandanı ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı vəzifəsini başa vuran general-leytenant Rüstəm Muradov ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra general-leytenant Rüstəm Muradov Rusiya sülhməramlı kontingentinin komandanı vəzifəsinə yeni təyin olunan general-mayor Mixail Kosobokovu Müdafiə nazirinə təqdim edib.

Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə edilib.

# Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi davam edir



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Laçın rayonunda keçirilən birgə döyüş atışlı taktiki təlim davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin növbəti günündə xüsusi təyinatlı qruplarla mürəkkəb relyefli ərazilərdə kəşfiyyatın aparılması, əlaqə yollarında pusquların qurulması, ərazidə təxribat qruplarının aşkarlanması və məhv edilməsi, o cümlədən müxtəlif manevrləri dəf edərək gizli yollarla şərti düşmənə yaxınlaşma tapşırıqları icra olunub.

Xüsusi təyinatlılar qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

# Azərbaycanın hərbi attaşesi "TurAz Şahini-2021" təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb

Türkiyə Respublikasının Konya şəhərində keçirilən "TurAz Şahini-2021" birgə taktiki-uçuş təlimlərinin növbəti günündə Azərbaycan Respublikasının qardaş ölkədəki hərbi attaşesi polkovnik Müşviq Məmmədov təlimlərdə iştirak edən şəxsi heyətlə görüşüb.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə aviasiya bazasının komandiri general-mayor Önder Şənsöz ilə görüşən polkovnik Müşviq Məmmədov vurğulayıb ki, bu təlimlərdə iki qardaş ölkənin hərbçiləri arasında geniş təcrübə mübadiləsinin aparılması çox əhəmiyyətlidir.

Sonra qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.



Görüşdən sonra hərbi attaşe aerodroma gələrək uçuş və texniki heyətlə görüşüb, təlimin gedişi ilə maraqlanıb.

Sonda xatirə şəkli çəkdirilib.

(Əvvəli 1-ci səhifədə)

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Heç bir qüvvə bizi dayandıra bilməz"

Vətən müharibəsi ərəfəsində Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar dedi: "Dağlıq Qarabağı işğal edən Ermənistana qarşı Azərbaycanın yanındayıq. Azərbaycan tək deyil". Bu dünyəvi fikir, dövlətlərarası münasibətlərdə bu səmimi münasibət dünya dövlətlərinin diqqətini Azərbaycanın xarici siyasətini müəyyənləşdirən qətiyyətə yönəltdi. Dünya dövlətləri gördü ki, "Zülmün topu var, gülləsi var, qəlpəsi varsa, Haqqın da bükülməz qolu, dönməz üzü vardır" (Tofiq Fikrət). Onu da dərk etdi ki, işğalın sonuna az qalıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Bu əminlik ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu da kükrətdi. Vətən müharibəsi başlayanda ürəyində təpər, dizində taqət olanların hamısı döyüşlərə getmək istəyirdi; Vətən müharibəsi xalqın müharibəsi kimi başlamışdı, xalqın müharibəsi kimi davam edirdi. Xalq "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz" kəlamının əsgəri idi. Vətən müharibəsi başlayanda Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş ata hərbi xidmətdən ötən il tərxis olunmuş oğlu ilə birlikdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət edib: "Kiçik oğlum hərbi xidmətdədi. Yeqin ki, o da döyüşlərdədi. Biz müharibəni evdən izləyə bilmərik. Biz də döyüşlərə getməliyik...". Ata da, oğul da döyüşlərə cəlb olunub. Hər üçü Vətən müharibəsinin sonuna kimi döyüşüb. Hər üçü Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif medallarla təltif edilib.

Neçə il əvvəl Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına postdaydıq. Salman kişi bir vaxtlar oğlunun döyüş növbətçiliyi apardığı postdan qarşı tərəfi müşahidə etmişdi, sonra yüksək rütbəli zabitlərdən birinə müraciətlə, "Ali Baş Komandan döyüş əmri verəndə oğlumun əvəzinə mən də döyüşəcəm. Xahiş edirəm, murazımı gözümdə qoymayın...", - demişdi. Əsgərlərdən biri zabitdən icazə alaraq Salman kişinin Çingizin barelyefinə tərəf uzalı qalmış əlini əlində isitmişdi, "Çingizin əvəzindən atası deyil, biz qardaşları vuruşacaq. Qələbədən sonra burada Çingizin ruhuna gözaydınlığı verərik...". Salman kişinin baxışları əsgərin baxışlarına qarışmışdı. Belə doğmalıq hamımıza könül xoşluğu vermişdi...

2016-cı ilin aprelində Azərbaycan Ordusunun qazandığı qələbə çağırışçıların da, yeniyetmələrin də qürurunun təntənəsi oldu. Bu günün əsgərləri onda məktəbliydi, 6-cı, 7-ci sinifdə oxuyurdular. Döyüşənlər haqqında, qəhrəmanlar haqqında məqalələr, kitablar oxuya-oxuya, televiziyada verilişlərə baxa-baxa mətinləşirdilər. Bu mətinləşmə əsgərləşməyə hazırlıq imiş. Onlara elə gəlirdi ki, günlər ləng ötüşür. Vətən müharibəsi başlayanda hərbi xidmətdəydilər. Hamısı bir-birinə, komandirləri hamısına "Məqam həmin məqamdı, Azərbaycan əsgəri!" deyirdi. Kəlmələr ana öyüdüydü sanki, Ana Vətənin tapşırığıydı, min illərin o üzündən dikələn dövlətçilik Azərbaycan əsgərinin Vətən sevgisini kükrətmişdi. Bu kükrəyiş döyüş sədası oldu...

Ermənistan işğal etdiyi ərazilərdə mühəndis-istehkam sistemi yaratmışdı, işğal müddətində onu möhkəmləndirirdi, təkmilləşdirirdi. Əks-hücum əməliyyatı kimi başlayan, Vətən müharibəsi kimi davam edən döyüşlərdə ordumuz düşmənin bu sistemini darmadağın etdi.

Vətən müharibəsində işğaldan azad edilmiş mövqelərdə döyüşlərarası fasilədə döyüşçülərlə söhbətlər müddət baxımından uzun çəkmirdi. Çox şey öyrənmək, öyrəndiklərimizin məğzini ictimailəşdirmək istəsəm də buna vaxt olmurdu. Müharibədə əsasən baxışlar danışır. Belə mükaliməsələşmələr qısa suallarla qısa cavabların mükaliməsi olurdu. Onda "Qələbədən sonra indi döyüşlər gedən ərazilər də əkilib-becəriləcək, müharibənin izi torpaqda deyil, tarixdə qalacaq...", - demişdim. Əsgərlərdən biri qətiyyətlə, "Vətən müharibəsi həmin günü tezləşdirəcək..." - demişdi və döyüşçü yoldaşlarına baxmışdı. Baxışların doğmalığından sezdiklərim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təkcə Ermənistana deyil, ona havadarlıq edən dövlətlərə də ünvanlanan fikirlərinin işığı idi. Bu işıq həm də döyüşlər gedən səmti kifayət qədər səxavətlə işıqlandırırdı. Onda bir daha əmin olmuşdum ki, torpaqlarımın işğaldan qurtuluşuna az qalıb...

Bu günlərdə işğaldan azad edilmiş ərazimizdə əsgərlərlə söhbətləşəndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi bir fikri də xatırladıq: "Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik".

Onda əsgərlərdən biri qürurla, əminliklə dedi ki, Zəfər təkcə işğalı sonlandırmadı. Zəfər həm də görk oldu: heç bir dövlət cəsarət edib Azərbaycanla müharibəyə başlamaz. Əsgərin dedikləri həm də "Heç bir qüvvə bizi dayandıra bilməz" fikrindən barınırdı...

Azərbycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə quruculuq işləri böyük məsuliyyətlə, böyük sevgilərlə davam edir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərində çıxışında dedi: "... ədalətə nail olmaq üçün çalışmaq lazımdır. Hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq".

İctimaiyyət bu kəlamları "Heç bir qüvvə bizi dayandıra bilməz" fikrinin davamı kimi yaşadı...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Ordunun HHM birləşmə, hissə və bölmələrində kompleks məşq keçirilib



*Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrində kompleks məşq keçirilib. Şəxsi heyətin sayıqlığını və peşəkarlığını yoxlamaq üçün məşqə Ordu aviasiyası da cəlb edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kompleks məşqə Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrinin yüksək döyüşə hazırolma vəziyyətinə gətirilməsi ilə başlanılıb.

Plana əsasən zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə şərti düşmən zərbələrinin dəf edilməsi məşq etdirilib.

Komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə şərti düşməni təqlid edən Ordu aviasiyası praktiki uçuşlarla məşqlərə cəlb edilib.

Pilotlar tərəfindən hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün mürəkkəb pilotoji manevrlər yerinə yetirilib.

Radiotexniki bölmələrin kəşfiyyat vasitələri ilə düşmən hədəfləri aşkarlanma həddinə çatdıqda əldə olunmuş məlumatlar komanda məntəqəsinə ötürülüb. Döyüş heyətləri tərəfindən hava hücum vasitəsinin dövlət hava sərhəddinə uçub çatma vaxtı və zenit-raket divizionlarının məhvetmə zonasına girmə ardıcıllığı üzrə hesabatlar aparılıb.

Düşmənin hava hücum vasitələri növbətçi qüvvələrin 1 nömrəli hazırlığa gətirilmə həddinə çatdıqda zenit-raket bölmələrinə 1 nömrəli hazırlıq elan olunaraq alınmış döyüş tapşırığına əsasən zenit-raket bölmələrinin komanda məntəqəsi hədəflərin aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə fəaliyyətləri yerinə yetirib.

Döyüş heyətləri tərəfindən zenit-raket bölmələrinin raket ehtiyatının təyin olunmuş normaya çatdırılması üçün buraxıcı qurğulara döyüş raketləri doldurulub.

Quru qoşunlarının hava hücumundan müdafiə bölmələri aşağı və ən aşağı hündürlüklərdə fəaliyyət göstərən düşmənin aşkarlanması, müşahidə və məhv edilməsi üzrə döyüş tapşırıqlarının icrasına davam ediblər.

Ehtiyatda olan zenit-raket bölmələri ümumqoşun birləşmələrinin hava hücumundan müdafiəsini təmin etmək məqsədilə təyin olunmuş start mövqelərinə yerdəyişməni həyata keçiriblər.





Obyektlərin və birləşmələrin hava hücumundan müdafiəsini təmin edərkən qorunan ümumqoşun birliklərinin döyüş fəaliyyətlərindən asılı olaraq zenit-raket qoşunlarının hissə və bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri arasında 3 mərhələdən ibarət qarşılıqlı əlaqə yaradılıb.

Birinci mərhələdə düşmənin hava hücum vasitələrinin obyektlərə və qoşun qruplaşmalarına zərbə vurmasının və dərinliklərə doğru uçub keçməsinin qarşısını almaq məqsədilə vahid hava hücumundan müdafiə sistemi qurulub. Bu zaman atışlar üzrə qarşılıqlı əlaqə hədəflərə görə qüvvələrin cəmləşdirilməsi və ya bölüşdürülməsi yolu ilə aparılıb.

İkinci mərhələdə zenit-raket qoşunlarının bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri atəş və məlumat mübadiləsi üzrə qarşılıqlı əlaqə yaradıblar. Atışın aparılması üzrə qarşılıqlı əlaqənin əsas üsulu qüvvələrin sektorlara və hündürlüklərə görə bölüşdürülməsi ilə icra olunub.

Üçüncü mərhələdə zenit-raket və quru qoşunlarının hava hücumundan müdafiə bölmələrinin atəş zonaları bölündüyünə görə onlar arasında məlumat mübadiləsi həyata keçirilib.

Beləliklə də real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılmasını kompleks şəkildə məşq edən bölmələr yüksək peşəkarlıq və ustalıq nümayiş etdiriblər.

# Vətən Müharibəsi Qəhrəmanı Zaur Nudirəliyevin xatirəsi yad edilib





***Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunələrinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş polkovnik Zaur İsmayıl oğlu Nudirəliyevin doğum günündə şəhidin anım tədbiri keçirilib.***

Müdafiə Nazirliyi, Hərbi Hava Qüvvələri və Nərimanov rayon İcra Hakimiyyətinin rəsmiləri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müəllim və kursantları, şəhidin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları və qazilər, eləcə də ictimaiyyət nümayəndələri İkinci Şəhidlər xiyabanını ziyarət edərək Vətən Müharibəsi Qəhrəmanı polkovnik Z.Nudirəliyevin məzarı qarşısına əklil və gül çələngləri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, igid təyyarəçinin doğum günü münasibətilə keçirilən tədbir başlamazdan öncə Birinci və İkinci Qarabağ müharibələrində şəhid olan Vətən övladlarının xatirəsinə bir dəqiqəlik sükut elan edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani tariximizin şanlı səhifələrindən hesab edilən Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində qazanılan möhtəşəm qələbədə Hərbi Hava Qüvvələrinin müstəsna rolundan danışaraq deyib: "İşğal altındakı ərazilərimiz yüksək dağlıq relyefə malik olduğundan bu yerləri qırıcı təyyarələrin, döyüş helikopterlərinin, hava hədəflərini vuracaq texnikaların, müasir aviasiya vasitələrinin istifadəsi olmadan azad etmək mümkünsüz idi. Odur ki, müharibənin ilk günündən yeni nəsil təyyarə və helikopterlərinə, dağıdıcı aviasiya vasitələrinə malik olan Hərbi Hava Qüvvələrimiz düşmənə sarsıdıcı zərbələr endirdi, onların hava hücumlarının qarşısını mərdliklə aldı və qoşunlarımızın ildırım sürətilə irəliləməsinə zəmin yaratdı. Erməni quldurlarının illərlə betonlayıb bərkitdiyi yüzlərlə bunker-sığınacaq, silah-sursat anbarı, zenit-raket kompleksi, artilleriya qurğusu, radiolokasiya stansiyası, radioelektron mübarizə vasitəsi, komanda-qərargah məntəqəsi, müxtəlif hərbi texnika və infrastrukturu məhv edildi.

Hərbi Hava Qüvvələrimiz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qarşıya qoyulan bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək Azadlıq meydanında keçirilən Zəfər paradına böyük ruh yüksəkliyi, qələbə əhval-ruhiyyəsi ilə qatıldı.

Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularından general-mayor Namiq İslamzadə, polkovnik Zaur Nudirəliyev (ölümündən sonra), polkovnik Elnur Qebedov, polkovnik-leytenant Səfər Qurbanov, polkovnik-leytenant Ramiz Qasımov (ölümündən sonra), polkovnik-leytenant Rəşad Nadirov və mayor Rəşad Qasımlı "Vətən Müharibəsi Qəhrəmanı" adına, Hərbi Hava Qüvvələrinin komandanı - müdafiə nazirinin müavini general-leytenant Ramiz Tahirov "Zəfər" ordeninə layiq görüldü. Onlarla hərbi qulluqçu "Qarabağ", "Rəşadət", "Azərbaycan Bayrağı" və digər döyüş orden və medalları ilə təltif olundu".

Polkovnik A.Qurbani qeyd edib ki, Vətən müharibəsində qazandığımız tarixi Zəfər də ulu öndər Heydər Əliyevin arzusu idi. Bu arzunu isə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında, Müzəffər Ali Baş Komandanımızın polad iradəsi, hücum diplomatiyası, sərkərdə məharəti, qətiyyəti və dəmir yumruğu sayəsində döyüş meydanlarında vuruşaraq reallaşdırdıq.

Ulu Öndərimiz 50 il qabaq indiki Cəmşid Naxçıvanski adına hərbi liseyi yaradarkən Azərbaycanın gələcəyini, bu günümüzü düşünürdü. Uzaqgörən dahi liderimiz istəyirdi ki, Azərbaycan oğulları digər sahələrlə yanaşı hərb elminin bütün sahələrinə də yiyələnsinlər. Həm quruda, həm dənizdə, həm də səmada Azərbaycanın müstəqilliyini, təhlükəsizliyini qoruya bilən peşəkar hərbçi kadrlarımız olsun. Heydər Əliyev istəyirdi ki, bizim güclü milli aviasiyamız olsun, bizim cəsur şahinlərimiz olsun, bu şahinlər öz məharətlərini bütün dünyaya göstərsinlər, o cümlədən, keçmiş illərdə bizim millətə bu sahədə bacarıqsız kimi qiymət verən adamlara göstərsinlər ki, azərbaycanlılar hər bir işin öhdəsindən gəlməyə qadirdirlər. Azərbaycan xalqı istedadlı xalqdır, onun istedadı hərbi sahədə də ən yüksək səviyyədə ola bilər. Azərbaycanlıların istedadı, qabiliyyəti səmanı fəth etməkdə də ən yüksək səviyyədə ola bilər.

Ulu Öndərimiz əmin idi ki, bu belə də olacaqdır. Çünki, dahi rəhbərimiz Azərbaycan gənclərinin həm fiziki cəhətdən genetik keyfiyyətlərinin yüksək olmasını, həm də xaraktercə, xasiyyətcə cəsur olmasını yaxşı bilirdi.



1997-ci il oktyabrın 15-də Azərbaycan Hərbi Təyyarəçilər Məktəbinin ilk buraxılışında milli şahinlərimizin uçuşlarını izləyən unudulmaz Heydər Əliyevin ürəyindən hansı hisslər keçirdiyini Hərbi Hava Qüvvələrinin nisbətən yaşlı əməkdaşları yaxşı xatırlayırlar. Həmin gün Ulu Öndərimizin sevinci yerə-göyə sığmırdı. Sevinirdi ki, artıq milli şahinlərimiz Azərbaycanın səmasını qorumağa, Azərbaycanın ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, Cəmşid Naxçıvanski adına hərbi liseyin məzunu Zaur Nudirəliyev o vaxt Türkiyə Respublikasında Ali Hərbi Hava Qüvvələri Məktəbinin ikinci kursunda təhsil alırdı.

O, 1999-cu ildə qardaş Türkiyədə təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Azərbaycana qayıdır və Hərbi Hava Qüvvələrində müxtəlif vəzifələrdə xidmət edir.

Vətən müharibəsinin ilk günündə sevimli qırıcı təyyarəsinin sükanı arxasına keçən qəhrəman təyyarəçimiz Z.Nudirəliyev xidməti vəzifələrinin öhdəsindən layiqincə gələrək düşmənin hərbi obyektlərinin, döyüş mövqelərinin darmadağın edilməsində şəxsi igidlik, şücaət və rəşadət nümunələri göstərir. Cəbrayıl-Füzuli və Ağdərə istiqamətlərində 7 gün ərzində 12 uçuşu uğurla başa vurur, Azərbaycan Ordusunun qurudan ciddi üstünlüyə sahib olmasını təmin edir. Lakin oktyabrın 4-də Cəbrayıl rayonu istiqamətində 13-cü döyüş uçuşunu reallaşdırsa da düşmənin hava hücumundan müdafiə qüvvələri tərəfindən onun idarə etdiyi təyyarə vurulur. Ağır yaralanmasına baxmayaraq Zaur İsmayıl oğlu təyyarədən hatapult edə bilərdi. Ancaq Ermənistan tərəfinə əsir düşməsin deyə təyyarəni düşmənin canlı qüvvəsinin cəmləşdiyi səngərə çırpır və şəhid olur. İgid təyyarəçimiz qələbə gününü görməsə də, onun və bütün şəhidlərimizin intiqamı düşməndən artıqlaması ilə alındı. Torpaqlarımız işğaldan azad edildi. Zəfər bayrağımız Şuşada və digər rayon mərkəzlərində əzəmətlə dalğalanır. 30 illik Qarabağ həsrətinə son qoyuldu.

İlk milli pilotlarımızdan olan polkovnik Zaur Nudirəliyevin ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilir, bir neçə döyüş medalına layiq görülür.

Hərbi Hava Qüvvələrinin komandanı - müdafiə nazirinin müavini general-leytenant Ramiz Tahirov Vətən müharibəsi Qəhrəmanı Zaur Nudirəliyevin milli hərbi aviasiyamızın novator, yenilikçi təyyarəçilərindən biri olduğunu qeyd edərək deyib: "Zaur bir sıra yeni üsulların müəllifidir və həmin üsulları sınaqdan keçirərək döyüşlərdə uğurla tətbiq edib. Vətən müharibəsindən bir müddət öncə komandanlıq tərəfindən "Su-25" təyyarələrinin yeni döyüş üsullarının istifadə olunması ilə bağlı qərar veriləndə biz bu işi qardaş Türkiyədə təhsil almasını və bir çox dövlətlərin hərbi hava qüvvələri ilə aparılan hərbi təlimlərdə böyük təcrübə toplamasını nəzərə alaraq Zaur Nudirəliyevə həvalə etdik. Zaur etimadımızı doğrultdu. O, mütəmadi olaraq hərbi təlimlər zamanı "Su-25" təyyarələrinin tam döyüş potensialından bəhrələnərək nişangah istifadə etmədən, yalnız riyazi üsullarla bombaların atılması üsulunu icra edir ki, bu da NATO standartlarına tam uyğundur və digər təyyarəçilərə də bunu peşəkarlıqla aşılayır. Bu gün Hərbi Hava Qüvvələrində qəhrəman təyyarəçimiz polkovnik Zaur Nudirəliyevin davamçıları kifayət qədərdir və onlar Azərbaycanın hava məkanını etibarlı şəkildə qoruyurlar. Qəhrəman təyyarəçimizin əziz xatirəsi həmişə qəlbimizdə yaşayacaq, onun qəhrəmanlıq nümunələri gələcək pilotlarımıza örnək olaraq göstəriləcəkdir".

Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Vətən müharibəsi şəhidlərinin adlarının əbədiləşdirilməsi, şəhid ailələrinin sosial problemlərinin həlli istiqamətində rayonda görülən işlərdən danışıb və Nudirəliyevlər ailəsinin də daim diqqətdə saxlanıldığını, hər cür qayğı ilə əhatə olunduğunu bildirib.

"Qarabağ" ordenli polkovnik-leytenant Reyhun Fərmanov çıxış edərək deyib: "Polkovnik Nudirəliyevin araşdırmaları nəticəsində "Su-25" təyyarəsinin göstəricilərindən məharətlə istifadə olunmuş, nəticədə yeni bir döyüş üsulu ərsəyə gəlmişdir. Yeni üsul təcrübədə uğurlu alındığı üçün Vətən müharibəsi zamanı geniş istifadə olunmuş və nəticədə Ermənistan silahlı qüvvələrinin dayaq məntəqələrinə, o cümlədən canlı qüvvələrinə ağır zərbələr endirilmişdir. İllər ötəcək, komandirimizin yenilikləri daha da təkmilləşdiriləcək və onun adı və qəhrəmanlığı hər birimizin yaddaşında əbədi yaşayacaqdır.

Şəhid qəhrəmanın qızı Azərbaycan Dövlət İqtisad Universitetinin ikinci kurs tələbəsi Pəri Nudirəliyeva atasının adının əbədiləşdirilməsi, xatirəsinin əziz tutulması və ailələrinə göstərilən diqqətə görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin, Hərbi Hava Qüvvələrinin, Nərimanov rayon İcra Hakimiyyətinin rəhbərliyinə və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Xatirə mərasimi hərbi orkestrin ifa etdiyi "Qələbə Marşı"nın sədaları altında başa çatıb.

# Azərbaycan oğullarının Belarusdakı qəhrəmanlıqları heç vaxt unudulmayacaq



Böyük Vətən müharibəsində Azərbaycanın cəsur oğul və qızları bütün cəbhələrdə böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Azərbaycanın qəhrəman oğulları Belarus torpağının faşistlərdən azad olunmasında iştirak edib, döyüşlərdə cəsarətlə vuruşublar. Aradan illər keçməsinə baxmayaraq, onların adları bu gün həm ölkəmizdə, həm də azadlığı uğrunda vuruşduqları ölkələrdə əziz tutulur. Xatirələri hörmətlə anılır. Sentyabrın 9-da Azərbaycan Hərb Tarixi Muzeyində Böyük Vətən müharibəsi zamanı Belarus Respublikasının faşistlərdən azad olunmasında iştirak edən azərbaycanlıların xatirəsinə həsr olunan anım mərasimi keçirildi. Mərasimdə Belarus Respublikasından gələn nümayəndələr də iştirak edirdilər.

Anım mərasimi Azərbaycan və Belarus Respublikalarının Dövlət Himnlərinin səsləndirilməsi ilə başlandı. Böyük Vətən müharibəsində, o cümlədən Belarusun faşistlərdən azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Belarusdan gəlmiş qonaqlar - jurnalist Kuçerova Larisa Aleksandrovna və Koşebar Dmitri Vasilyeviç tədbir iştirakçılarına təqdim olundu.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək Azərbaycan oğullarının Belarusun faşistlərdən azad olunması uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan ətraflı söz açaraq dedi ki, Azərbaycan və Belarus xalqlarını təkcə siyasi, iqtisadi, mədəni əlaqələr deyil, həm də Vətənin azadlığı, onun həm xarici, həm də daxili düşmənlərdən qorunması uğrunda mübarizə birləşdirir. Böyük Vətən müharibəsi illərində Belarusun azadlığı uğrunda iyirmi mindən çox azərbaycanlı vuruşub. Bu cəsur oğullardan 14 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına və başqa orden və medallara layiq görülmüşdür. Azərbaycan müharibəyə 700 min vətəndaşını göndərmişdi ki, onlardan 10 mini qadın idi. 300 mindən çox azərbaycanlı müxtəlif cəbhələrdə həlak olmuşdur. 400 mindən çox azərbaycanlı müxtəlif orden və medallarla təltif edilmişdir. Onlardan 14 nəfəri "Şöhrət" ordeninin bütün dərəcələrinə, 128 nəfər isə ən yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Böyük Vətən müharibəsi illərində qələbənin qazanılmasında Bakı zəhmətkeşlərinin, o cümlədən neftçilərin əməyini də xüsusi ilə qeyd etməliyik. Sovet İttifaqı marşalı Georgi Jukov öz memuarlarında qeyd edirdi: "Qəhrəman Bakı neftçiləri ölkəyə və cəbhəyə o qədər neft verirdilər ki, həmin neftlə biz ana Vətənimizin müdafiəsini və düşmən üzərində qələbənin qazanılmasını təmin etdik." Azərbaycanlılar Belarusun müdafiəsində də böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Brest qalasında ilk həlak olan və orada dəfn olunan hərbçilər arasında azərbaycanlılar da olmuşdur.

Belaruslar ölkələrinin azadlığı uğrunda həlak olan başqa xalqların övladları ilə bərabər Azərbaycan xalqının cəsur oğullarının da xatirəsini həmişə əziz tuturlar. Moqilyev şəhərində azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları Həzi Aslanovun, Aslan Vəzirovun, Nəcəfqulu Rəfiyevin və başqalarının büstü ucaldılıb. Buna görə biz Belarus Respublikasının rəhbərliyinə, həmçinin belarus xalqına dərin minnətdarlığımızı bildiririk. Azərbaycan və Belarus Respublikaları arasında həmişə dostluq və qardaşlıq münasibətləri olub. İnanırıq ki, bu münasibətlər getdikcə daha da inkişaf edəcək. Bu inkişaf isə bizi bir-birimizə yaxınlaşdıracaq, doğmalaşdıracaq.





Sonra professor Cəbi Bəhramov, tarix elmləri doktoru Nurulla Əliyev, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov və başqaları çıxış edərək Azərbaycan oğullarının Belarusun alman faşistlərindən azad olunmasında göstərdikləri igidlik və qəhrəmanlıqlardan söz açdılar.

Belarusdan gəlmiş nümayəndə, jurnalist Larisa Kuçerova da çıxış etdi. O dedi:

- Bütün tədbir iştirakçılarını salamlayıram. Belə bir mövzuda tədbir keçirdiyinizə görə çox sağ olun. Xalqımızın ünvanına söylədiyiniz xoş sözlərə görə çox minnətdaram. Gördüklərimdən, eşitdiklərimdən çox məmnunam. Tale elə gətirdi ki, mən jurnalist oldum və daha çox müharibədən yazdım. Müharibədən yazmaq çox ağrılıdır. Amma yazılmalıdır. Yazılmalıdır ki, gələcək nəsillər üçün bir örnək olsun. Böyük Vətən müharibəsi mövzusunda bir çox araşdırma məqalələri yazmışam. Müharibə gəlişi ilə insanlara ölüm, kədər və qüssə gətirir. Avropa almanlara tez təslim oldu, amma keçmiş Sovet İttifaqı faşistlərə qarşı vuruşdu. Qələbənin qazanılmasının ağırlığı keçmiş ittifaqda yaşayan bütün xalqların çiyinlərinə düşdü. Burada doğrudan da, çox düzgün olaraq vurğulandı ki, qələbənin qazanılmasında Bakı nefti böyük rol oynadı. Faşizm üzərində qələbənin qazanılmasını təmin etdi. Belarusun alman faşistlərindən təmizlənməsində Azərbaycan oğulları da böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Onların qəhrəmanlıqları heç vaxt unudulmayacaq. Mən bir jurnalist, bir araşdırmaçı kimi deyə bilərəm ki, qələbə ilk olaraq Brestdə doğuldu. Böyük uğurlara, qələbələrə gedən yollar buradan başlandı. Biz bu gün Böyük Vətən müharibəsindən yazırıq. Ona görə yazırıq ki, qoy gələcək nəsillər faşizmi necə məhv etdiyimizi görsünlər, oxuyub bilsinlər. Biz keçmişi yaxşı-yaxşı öyrənməliyik. Çünki əgər biz keçmişi yaxşı öyrənməsək, gələcəyimizi qura bilməyəcəyik. Bildirim ki, ölkənizə ilk səfərimdir. İnanıram ki, gələcəkdə əməkdaşlığımız daha da genişlənəcək və inkişaf edəcəkdir.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi Əzizağa Qənizadə qonaqlara Böyük Vətən müharibəsinin tarixindən yazılmış kitablar hədiyyə etdi.

İştirakçılar üçün "Azərbaycan oğulları Belarusun müdafiəsində" adlı videoçarx nümayiş etdirildi.

Tədbir başa çatdıqdan sonra qonaqlar Azərbaycan Hərb Tarixi Muzeyinin eksponatları ilə yaxından tanış oldular.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Şəhid Şamo Rəhimovun xatirəsi anılıb



Şəhid Şamo Rəhimov yaşasaydı 39 yaşını qeyd edəcəkdi. 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanın ad günündə Füzuli Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin əməkdaşları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi, qazilərimiz onun xatirəsini anıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Rəhimov Şamo Heydər oğlunun məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülərək ruhuna dualar oxunub. Çıxış edənlər Azərbaycan Ordusunun 44 gün ərzində düşmən üzərində qazandığı Zəfərdən danışıblar. Bildirilib ki, bu qələbə Azərbaycan tarixinə yazılan şanlı bir səhifə olaraq xatırlanacaq və haqq döyüşünə qoşularaq canlarını fəda edən şəhidlərimiz daim bu tarixin əsl qəhrəmanları kimi yaddaşlarda qalacaq. Vətən müharibəsində ölümün gözünə dik baxan igidlər bir amal uğrunda döyüşərək 30 illik Vətən həsrətinə son qoydu, gələcək nəsillər üçün örnək oldu.

Qeyd olunub ki, 1982-ci il sentyabrın 8-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olan Şamo uşaqlıq illərini də cəbhə rayonunda yaşayaraq vətənpərvər ruhda böyüyüb. O, Vətənə bağlı olması ilə seçilib. Həqiqi hərbi xidmətə ruh yüksəkliyi ilə yollanan Şamo xidməti dövründə də fərqlənib. Sonra müddətdən artıq həqiqi hərbi xidməti seçərək, Vətənin keşiyində dayanıb. Aprel döyüşlərində qəhrəmanlığı ilə seçilib. Vətən müharibəsində də ön sıralarda döyüşə qoşulub, əsl qəhrəman kimi döyüşüb. Bir çox strateji yüksəkliklərin azad olunmasında fəallıq göstərən Şamo oktyabrın 1-də gərgin döyüşlər zamanı şəhid olub.



Şamo Rəhimov Vətən müharibəsində göstərdiyi şücaətə görə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Tarixdə əbədiləşən şəhid qardaşlar



*Vətən sevgisi - öz həyatını şəxsi mənafeyini xalq, millət, torpaq yolunda qurban verməyə qadir olan milli-mənəvi dəyərdir. Qəlbi ilə, ruhu ilə Vətəni sevən ulularımız göz qırpmadan Azərbaycan uğrunda canlarından keçməyə hazır olublar.*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-dən etibarən Vətən müharibəsinə başladı. 30 ilə yaxın müddətdə işğalda qalan torpaqlarımız azad edildi, çağdaş tariximizə yeni şanlı tarix yazıldı. Tarixi torpaqlarımız məkrli düşmən tərəfindən işğal olunarkən də, atəşkəs dövründə də zaman-zaman igid oğullarımız şəhid oldu. Torpağı qanı ilə Vətənləşdirən oğullarımız ərazi bütövlüyümüz uğrunda şəhid olsalar da, övladlarının qisasının alınmasını gözləyən neçə gözü yaşlı doğmalarımız var idi. 44 günlük haqq savaşımızda qazanılan Böyük Qələbə ilə bütün şəhidlərimizin qisası alındı. "Dəmir yumruq" əməliyyatı ilə işğala son qoyuldu.

Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələrini uca tutmaq, yaşatmaq, doğmalarına yüksək diqqət göstərmək hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

44 günlük Vətən müharibəsində şəhid olmuş qardaşlar İman və Bəhrəm Məmmədzadələrin evinə ziyarətə getdik. Kəndin girəcəyində şəhid qardaşların adlarını əbədiləşdirmək məqsədilə kompleks salınıb, bu kompleks şəhidlərimizə ehtiramın və onların ölməzliyinin nümunəsidir. Atası Elman kişi qarşıladı. Məğrur duruşu ilə "Allah rəhmət eləsin" fikrimizi başını dik tutaraq "Vətən sağ olsun!" cümləsi ilə tamamlayan şəhid qardaşların atasından şəhidlərimizin həyat və fəaliyyəti haqqında qısa məlumat aldım. "Böyük oğlum İman 1998-ci il sentyabrın 14-də, kiçik oğlum Bəhrəm 2000-ci il aprel ayının 18-də Lerik rayonunda anadan olub. Orta təhsillərini Xəzər rayonu Binə qəsəbəsindəki 117 nömrəli məktəbdə alıblar. Hər ikisi ali təhsilini Rusiyada almışdı. Hər ikisi həddindən artıq vətənpərvər idi, qürbətdə ölkəmizi layiqincə təmsil etməyi də bacarırdılar. Uşaq yaşlarından ikisidə idmana maraq göstərmişdi. İman ağır atletika, Bəhrəm cüdo ilə məşğul olub. Hər ikisi dəfələrlə medal və diplomlarla təltif olunub. Bəhrəm iştirak etdiyi beynəlxalq cüdo yarışının finalında erməni rəqibini məğlub edərək birinci yeri tutmuşdu. Onun qələbəsi naminə üçrəngli bayrağımız ucaldılmışdı. Ali təhsillərini başa vurduqdan sonra ötən il iyunun 5-də Vətənə qayıtdılar. Hərbi xidmətə yola düşdülər. İyulun 29-da hərbi xidmətə yollanan qardaşlar burada dostlar qazanmışdı. Onların dostları bizi unutmurlar, tez-tez ziyarətə gəlirlər. Vətən müharibəsində mənim oğullarım da iştirak etdilər. İman və Bəhrəmin timsalında bütün şəhidlərlə fəxr edirəm. Demək istəyirəm ki, milli ləyaqətimiz məhz qəhrəman oğulların sayəsində mövcud olur. Qürurlanıraq ki, övladlarımız şəhidlik zirvəsinə yüksəliblər. Oğullarım əkiz olmasalar da, bir-birilə nəfəs alırdılar. Onları ölüm də ayıra bilmədi.

2020-ci il oktyabrın 27-də Qırmızı Bazar ətrafında gedən gərgin döyüşlər zamanı şəhid oldular. Döyüşlər vaxtı bir an belə bir-birindən ayrılmayan İman və Bəhrəm döyüşlər boyunca ölümün gözünə dik baxıblar. Komandiri İmana deyəndə ki - siz iki qardaşsınız, bir-birinizi qorumalısınız - oğlum cavab verib ki, burada yüzlərlə qardaşımız var, onların hər biri üçün şəhid olmağa hazıram. Oğullarım haqqında keçmiş zamanda danışmaq çətin olsa da, bilirdim ki, övladlarımın heç biri digərini yalnız qoymazdı. Onların ya hər ikisi evə qayıdacaqdı, ya da hər ikisi şəhid olacaqdı. Təhsilləri də bir, xidmətləri də bir, döyüş yolları da bir, şəhidlikləri də bir. Anaları Hicran xanımla təsəllimiz odur ki, Vətən üçün canını fəda edən iki qəhrəman oğulumuz var. Vətənə layiq iki övlad yetişdirməyimizdi təsəllimiz. Şərəfli ömür yaşadılar. Mənim şəhid oğullarım Zəfər tariximizin bir parçası olaraq daim yaddaşlarda yaşayacaqlar".

Şəhid atası Elman Məmmədzadə döyüşlər vaxtı İman və Bəhrəmin komandirləri ilə görüşünü də xatırladı. "Komandirləri məni qucaqlayaraq dedi ki, döyüşün gedişində Bəhrəmlə birlikdə yaralanıb. Bəhrəm qolundan, komandiri isə ayağından xəsarət alıb. Təkidlə ona xəstəxanaya getmək tapşırılsa da, o, qardaşı İmanı tək qoymayacağını söyləyərək, xəstəxanaya getməkdən imtina edib. İman döyüşlərdə yaralıların və şəhidlərin təxliyəsində iştirak edib. İdmanla məşğul olması onu qorxusuz bir döyüşçü kimi formalaşdırmışdı. Onları bu dünyada ölüm də ayıra bilmədi. Fəxr edirəm Şəhid övladlarımla, təşəkkürümü bildirirəm Ali Baş Komandana.

Hicran xanım da xatirəyə dönən rəsmlərdə və övladlarının şərəfinə salınmış xatirə güşəsində yadigar qalan əşyalara toxunaraq rahatlıq tapdığını dedi. Oğullarımla fəxr edirəm. Ömürlərinin müəyyən qismini qürbətdə keçirməklərinə baxmayaraq, hər zaman Vətən sevgisi ilə yaşadılar, ölkəmizi uğurla təmsil etməyi bacardılar. İstər təhsil ocağında, istərsə də idman sahəsində üçrəngli bayrağımızı layiqincə dalğalandırıblar. İman və Bəhrəm mehribanlıqları və tərbiyələri ilə valideynlərinə layiqli övlad, sədaqətləri ilə el-obaya gərəkli vətəndaş, igidlikləri və cəsarətləri



ilə komandirlərinə və əsgər yoldaşlarına əsl silahdaş olaraq hər birimizin başını uca etdilər, adlarını əbədiləşdirdilər. İman və Bəhrəm tək mənim deyil, Azərbaycan xalqının şəhid övladlarıdır. Oğullarımın vətənpərvərlik nümunəsi olaraq gənc nəsil üçün örnək olmaları qəlbimizə bir təskinlik verir.

Uşaqlar arasındakı sevgi və bağlılıq bizi bir valideyn kimi hər zaman qürurlandırıb, hər zaman bir-birlərinə dayaq olmaları bizə könül xoşluğu verirdi. Hətta telefon danışığı zamanı böyük oğlum İmandan "oğlu"nun (Bəhrəmi nəzərdə tutur) sözünə baxıb-baxmamasını soruşardım, Bəhrəmlə danışarkən "ata"nın (İmanı nəzərdə tutur) ona diqqət göstərib-göstərmədiyi ilə maraqlanırdım. Onlarla son söhbətimiz zamanı mənə dedi ki, Ana şəhidlərimizi heç zaman unutmayın, onları daim xatırlayın. Biz o vaxt bunu o qədər də anlamırdıq. Fəxr edirəm onlarla. Onların timsalında bütün şəhidlərimizlə qürur duyuram. Şəhid anası olaraq bütün şəhid analarına demək istəyirəm ki, başlarını dik tutsunlar, məğrur olsunlar. Ölkəmizdə şəhidlərimizə olan diqqət yüksək səviyyədədir. Bu da bizə böyük təsəlli verir. Mənim oğullarımın da şərəfinə qəsəbəmizin girişində şəkil lövhələri vurulub, xatirə güşəsi salınıb. Kənd camaatı da, ölkəmizin müxtəlif yerlərindən bizi ziyarətə gəlirlər.

Otağın hər tərəfində şəhid qardaşların şəkilləri, divarda asılmış fotoları, masa üzərində şəxsi əşyaları, idmanda qazandıqları diplomlar və döyüşlərdə göstərdikləri şücaətə görə təltif edildikləri medalları xatirə olaraq qalır.

Hər iki qardaş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Müdafiə Nazirliyinin zabiti Elmar Zeynalabdinov valideynlərə Vətən üçün belə qəhrəman oğullar yetişdirdikləri üçün minnətdarlığını bildirdi. "Vətən uğrunda canını qurban vermək çox böyük fədakarlıq tələb edir ki, öz canları ilə xalqın firavanlığını təmin edən oğullarımıza hər zaman borcluyuq. Onların xatirəsinə yüksək ehtiram göstəririk, keçdikləri həyat yolunu dərindən öyrənməli gələcək nəslə qəhrəmanlıq nümunəsi olaraq təqdim edirik. Hər bir azərbaycanlının qəlbindəki Qarabağ həsrətinin sonlanmasında şəhidlərimiz öz canlarından keçdilər. Biz bir vətəndaş olaraq üzərimizə düşən əsas vəzifə sizləri ziyarət etməkdir, şəhidlərin ruhlarını ehtiramla yad etməkdir, xalqımıza qəhrəman oğullarımızı tanıtmaqdır".

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Tariximizin şərəfli səhifəsi

*27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan Vətən müharibəsi tariximizdə şərəfli bir səhifə kimi qalacaq. 44 gün davam edən Vətən müharibəsində ordumuzun cəsur zabit və əsgərləri böyük hünər və qəhrəmanlıq göstərərək 28 ildən çox erməni işğalı altında qalmış torpaqlarımızı azad etdilər.*

Vətən müharibəsində iştirak edən zabitlərimizdən biri də mayor Ceyhun Məmmədovdur. Onun həyat yolunu vərəqləyərkən öyrəndik ki, təcrübəli zabit Neftçala rayonunda dünyaya göz açıb. 1998-ci ildə Bakı Dövlət Universitetinin Sosial Elmlər və Psixologiya fakültəsini bitirib. Növbəti il - 1999-cu ildə gənc zabit kimi ordu sıralarına çağırılıb. Zabit Ceyhun Məmmədov o gündən Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirir. İkinci Qarabağ müharibəsi başlananda zabit kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Mayor Ceyhun Məmmədov əks-hücum əməliyyatlarında göstərdiyi igidliyə və şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Vətən müharibəsinin iştirakçısı olmağından qürur duyan zabit Ceyhun Məmmədov o gərgin günlərdən qısa da olsa



söz açdı. "Hərbi hissəmizin zabit və əsgərləri İkinci Qarabağ müharibəsində böyük cəsarət və hünərlə vuruşdular. Ermənilərin "məğlubedilməz"lik mifi darmadağın edildi. Hərbi hissəmizin şəxsi heyətinin təkcə döyüş hazırlığı deyil, mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədə idi. Bu coşqunun, bu hazırlığın qarşısında düşmən dayana bilməzdi. Dayana bilmədi də! Erməni təxribatı nəticəsində başlayan Vətən müharibəsinin ilk günlərindən zabit və əsgərlərimiz əks-hücum əməliyyatlarına atıldılar. Peşəkarlığı, bacarığı yüksək olan hərbçilərimiz dəqiq atəş zərbələri ilə ermənilərin mövqelərini darmadağın etdilər. İşğalçılar bu zərbələr qarşısında dayana bilməyərək geri çəkildilər. Vətən müharibəsinin ilk günü Cəbrayıl rayonunun bir neçə kəndi işğalçılardan azad olundu. Yaşayış məntəqələrimizin düşməndən təmizlənməsində hərbi hissəmizin şəxsi heyəti böyük hünər və qəhrəmanlıq göstərdi. Yağıları məğlub edib zəfər qazandıqca zabit və əsgərlərimizin döyüş ruhu daha da yüksəlir, qələbə əzmi coşurdu. Ən ağır və çətin döyüşlərimiz Füzuli rayonu uğrunda oldu. Ermənilər 30 il ərzində burada "keçilməz sədlər" qurmuş, mövqelərini möhkəmlətmişdilər. Ona görə də mənələrin arxasında gizlənərək ciddi müqavimət göstərməyə çalışırdılar. Amma cəsur Azərbaycan əsgəri, Azərbaycan zabiti böyük qəhrəmanlıq göstərərək düşmənin keçilməz sandığı mövqelərini darmadağın etdi. Sonra zabit və əsgərlərimiz Xocavənd uğrunda döyüşdülər. Döyüş və mənəvi-psixoloji hazırlığı yüksək olan döyüşçülərimiz bu istiqamətdə də düşmənə sarsıdıcı zərbələr vurdular..."

Zabit Ceyhun Məmmədov söhbətinin sonunda onu da dedi ki, döyüşlərdən qələbə ilə geri dönən hərbçilərimiz bu gün təlim keçir, döyüş hazırlıqlarını artırırlar. İnanırıq ki, daim artan döyüş hazırlığı şəxsi heyətə həmişə yeni-yeni uğurlar qazandıracaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# “TurAz Şahini-2021” birgə təlimləri davam edir





"TurAz Şahini-2021" birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyə HHQ-nin aviasiya vasitələri təlim planına əsasən, təyin olunan hündürlükdə marşrut üzrə birgə uçuş tapşırıqlarını yerinə yetiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tapşırığın senarisinə uyğun olaraq şərti düşmənin hava hücumundan müdafiə vasitələrinə, yerüstü hədəflərinə zərbələr endirmə və onun qırıcılarından yayınma manevrləri hərbi təyyarəçilər tərəfindən uğurla icra edilib.

* * *

"TurAz Şahini-2021" birgə taktiki-uçuş təlimlərinin planına əsasən, Azərbaycan və qardaş Türkiyə Respublikasının döyüş təyyarələri əməliyyat uçuşları yerinə yetiriblər.

Təlimlərdə hər iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyətin və fərqli xüsusiyyətlərə malik döyüş təyyarələri arasında rabitə əlaqəsinin uzlaşdırılması imkanları öyrənilir. Eyni zamanda, havadan zərbələr endirməklə şərti düşmənin hava hücumundan müdafiə vasitələri və hərbi təyinatlı strateji obyektlərinin məhv edilməsi, o cümlədən yaxın hava döyüşü və digər tapşırıqlar müvəffəqiyyətlə icra olunur.

Təlimlər sentyabrın 17-dək davam edəcək.

# Azərbaycan və Türkiyə sualtı hücum və müdafiə qruplarının təlim-məşqlərində növbəti mərhələ icra olunub

Azərbaycan və Türkiyə Respublikalarının sualtı hücum və sualtı müdafiə qruplarının iştirak etdiyi birgə təlim-məşqlərində növbəti mərhələnin tapşırıqları icra olunub.

Bu mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus sektorunda şərti terrorçu qrup tərəfindən zəbt edilən gəmidə onların zərərsizləşdirilməsi və gəminin azad edilməsi



tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilib.

Helikopter və katerlərin cəlb olunması ilə keçirilən təlimin növbəti mərhələsində qarşıya qoyulan tapşırıqları iki qardaş ölkənin xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdirərək dəqiq və effektiv icra ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**





# “Azərbaycan hərbçilərinin beynəlxalq yarışlarda qazandıqları nəticələr ordumuzun yüksək peşəkarlığının göstəricisidir”

Sentyabrın 4-də Moskva ətrafında yerləşən "Patriot" parkında "Beynəlxalq Ordu Oyunları-2021" yarışlarının təntənəli bağlanış mərasimi keçirilib. Azərbaycan hərbçiləri bu yarışlar çərçivəsində Rusiyada "Tank biatlonu" və "Mədəniyyət Ordusu", İranda "Dəniz kuboku", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" müsabiqələrində iştirak edərək əsl peşəkarlıq sərgiləyiblər.

AZƏRTAC xəbər verir ki, bununla bağlı açıqlama verən Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bu təlimlərin ordumuzun peşəkarlığının artırılması baxımından mühüm əhəmiyyətə malik olduğunu bildirib. O qeyd edib ki, hərbi təlimlər ordumuzun döyüş hazırlığının daim yüksək səviyyədə qorunub saxlanılması və daha da təkmilləşdirilməsi baxımından önəmlidir. Bu baxımdan ordumuzun "Beynəlxalq Ordu Oyunları-2021" yarışlarında iştirakı olduqca vacibdir. Azərbaycan dünyanın müxtəlif yerlərində keçirilən hərbi yarışlarda, beynəlxalq ordu oyunlarında müntəzəm iştirak edir. İstər Rusiya, Qazaxıstan və digər post-sovet ölkələrində, istərsə də Türkiyə və digər NATO dövlətlərində keçirilən təlimlərdə Azərbaycan hərbçiləri iştirak edərək yüksək nəticələr qazanırlar. Bu təlimlərdə hərbçilərimizin əldə etdiyi nəticələr Azərbaycan Silahlı Qüvvələrinin gücündən, onun peşəkarlığından xəbər verir və biz də haqlı olaraq ordumuzla qürur duyuruq.

Ehtiyatda olan polkovnik vurğulayıb ki, Azərbaycan Ordusu dəniz təlimlərində də mütəmadi iştirak edir, bu sahədəki hərbi yenilikləri sürətlə mənimsəyir. "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində hərbçilərimiz İranda "Dəniz kuboku" yarışlarında da yüksək peşəkarlıq nümayiş etdirib. Ordumuzun "Dəniz kuboku" yarışlarındakı qazandığı nəticə ölkəmizin dəniz sərhədlərinin təhlükəsizliyinin ciddi şəkildə qorunduğunu bir daha göstərdi. Azərbaycan Silahlı Qüvvələrinə daxil olan bütün qoşun növləri, hərbi birliklər yüksək döyüş hazırlığına malikdir və bu hazırlığın qorunub saxlanılmasına, daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycan Ordusunun beynəlxalq müsabiqə və ordu oyunlarında əldə etdiyi yüksək nəticələrdən Ermənistan və onun havadarlarının da dərs çıxarmalı olduğunu bildirən Respublika Veteranlar Təşkilatının sədr müavini deyib: "44 günlük Vətən müharibəsində ordumuzun əldə etdiyi parlaq zəfər onun yüksək döyüş hazırlığına əyani sübut idi. Bu günlərdə keçirilən ordu oyunlarında qazanılan nəticələr də həmin döyüş hazırlığının uğurla qorunub saxlanıldığını göstərir. Hesab edirəm ki, ordumuzun beynəlxalq hərbi yarışlarda göstərdiyi nəticə bu gün də təxribatlardan əl çəkmək istəməyən Ermənistan və onun havadarlarına dərs olmalıdır. Ordumuzun bu təlimlərdəki nəticələri bir daha dəmir yumruğun yerində olduğunu, düşmənlərə hər zaman zərbə endirməyə hazır olduğunu göstərir".

# Xəbərlər: hadisələr, faktlar

## Böyük Britaniyanın “Queen Elizabeth” aviadaşıyıcı gəmisi Yaponiya limanını tərk edib



Sentyabrın 8-də Böyük Britaniyanın "Queen Elizabeth" flaqman aviadaşıyıcı gəmisi Yaponiyanın Tokio körfəzinin girişində yerləşən Yokosuka limanını tərk edib.

Bu barədə Kyodo agentliyi məlumat yayıb. Böyük Britaniyanın aviadaşıyıcı gəmisinin Yaponiya limanını tərk etdikdən sonra hara üzəcəyi barədə məlumat verilmir. Bununla yanaşı, onun Yaponiya limanına ilk dəfə yan aldığı qeyd edilir.

Avqustun 24-də Yaponiya və Böyük Britaniya Sakit okeanda, Okinava adasından cənubda hərbi-dəniz qüvvələrinin birgə təlimlərini keçiriblər. Təlimlərdə Böyük Britaniyanın hərbi-dəniz qüvvələrinin zərbə aviadaşıyıcı qrupu "Queen Elizabeth" gəmisinin başçılığı ilə iştirak edib. Yaponiya tərəfdən təlimlərə "İse" gəmisi, həmçinin Yaponiyaya və ABŞ-a məxsus 15 ədəd "F-35B" və "F-15" təyyarələri qatılıb. Təlimlər zamanı tərəflər göyərtə aviasiyasının uçuş və enmə proseslərini məşq ediblər.

70,6 min ton su tutumuna malik olan "Queen Elizabeth" gəmisinin uzunluğu 280, eni 73 metrdir. Gəminin heyəti 679 nəfərdən ibarətdir. Aviadaşıyıcının rəhbərlik etdiyi zərbə qrupuna 40 qırıcı, o cümlədən 24 qırıcı-bombardmançı, 9 sualtı qayıqlara qarşı və 5 uzaq məsafəli radiolokasiya təyinatlı helikopter daxildir.

## İraqda terrorçu qruplaşma məhv edilib



İraqın təhlükəsizlik qüvvələri Kərkük vilayətində antiterror əməliyyatı keçirərkən terrorçuların müqaviməti ilə qarşılaşıblar.

İraq Silahlı Qüvvələrinin Baş Qərargahının nümayəndəsi general Yəhya Rəsul bildirib ki, terrorçu qruplaşmalar İraqın heç bir vilayətini nəzarət altında saxlamaq imkanına malik deyillər. Lakin həmin qruplar bəzi vilayətlərdə gizlənib ara-sıra terrorçuluq fəaliyyəti göstərirlər. Bunun qarşısını almaq məqsədilə keçirilən antiterror əməliyyatı nəticəsində Kərkük vilayətində terrorçu qruplaşma aşkarlanıb.

Təhlükəsizlik qüvvələri ilə terrorçular arasında baş verən silahlı toqquşmada 10 silahlı məhv edilib. Hazırda Kərkük vilayəti terrorçulardan tam təmizlənib.

Terrorçu qruplaşmalar təxribat törətmək üçün ABŞ ordusunun İraqdakı hərbi hissələrinə də hücumlar təşkil edirdi.

General bildirib ki, antiterror əməliyyatları İraq ərazisi terrorçulardan tam təmizlənənə qədər davam edəcək.

## Böyük Britaniya ordusunda 19 əsgərin narkotik istifadəçisi olduğu müəyyənləşib



Böyük Britaniya ordusunda xidmət edən 19 əsgərin narkotik istifadəçisi olduğu müəyyənləşib.

Ordunun quru qoşunlarından olan Yorkşir Alayında 19 əsgərin narkotik testi pozitiv çıxıb. Test nəticəsi müsbət çıxan əsgərlərin çoxunun yüksək rütbəli olduğu açıqlanıb.

Ölkənin Müdafiə Nazirliyi açıqlama verərək bildirib ki, ordu sıralarında narkotikdən istifadəyə heç vaxt icazə verilmir. Bu şəxslər dərhal ordudan qovulacaq.

Qeyd edək ki, 2019-cu ildə də 660 işçi bu səbəbdən işdən azad olunmuşdu.

Açıqlanan rəsmi rəqəmlər ölkənin silahlı qüvvələrdə narkotik istifadəsinin artdığını göstərir.

**AZƏRTAC-ın
materialları əsasında**

*Tarix yazan oğullar*

# Şəhidlik əbədiyyət zirvəsidir



Şəhidlik mənəviyyat, əbədiyyət zirvəsidir. Bəşəriyyət bu zirvəylə qürurlanır. Bəşəri yaşadan bu qürurdur.

Nisgilimizdi, kədərimizdi, ürək ağrımızdı, həm də qürurumuzdu şəhidlər. Vüqarımızdı, fəxrimizdi, ölməzliyimizdi, örnəyimizdi...

Sentyabrın 27-də əks-hücum əməliyyatı ilə başlayan, 44 gün davam edən və işğal altındakı tarixi torpaqlarımızın azad olunması ilə başa çatan Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixarına çevrildi. Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə illər çəkən problemi döyüşlə həll etdi.

Düşünürəm: bəlkə də dünyada yeganə xalqıq ki, o günlərdə döyüş meydanında hər birimizin doğmasının olmasına rəğmən, müharibə xəbərini sevinclə qarşıladıq. Çünki savaşımız haqq savaşı idi. Torpaqlarımızı işğaldan azad etmək üçün illərlə döyüş gününü gözləyirdik. Son damla qanımıza qədər vuruşmağa hazırdıq. Anasının qucağında doğma yurd yuvasından qovulanlar, zorla didərgin salınanlar, Xocalı intiqamıyla böyüyənlər, Qarabağ həsrətini çəkənlər Ali Baş Komandanın əmri ilə yumruq kimi birləşdilər. Müzəffər ordumuzun cəsur igidləri torpaqlarımızın hər qarışını düşməndən azad edərək, xalqımızı Böyük Qələbə ilə müjdələdilər.

Müharibə itkisiz, acısız olmur. Vətən müharibəsində də xalqımızın mərd oğulları düşmən əsarətində olan torpaqlarımız uğrunda canlarından keçdilər.

O günlərdə Vətən, millət, xalq yolunda ali məqama yüksələnlərdən biri də çavuş Rüfət Vaqif oğlu Sadıqov oldu. O, 13 noyabr 1995-ci ildə Daşkəsən rayonunun Quşçu kəndində anadan olub. 2013-cü ildə Quşçu kənd Əli İsmayılov adına orta məktəbini bitirib. 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ildə Vətən qarşısında müqəddəs borcunu layiqincə yerinə yetirib. 2016-cı il müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "N" hərbi hissəsində xidmətə başlayıb. Xidmət müddətində dəfələrlə Fəxri fərmanlarla təltif olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Rüfət Sadıqov 2020-ci il oktyabrın 4-də Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olub. Nəşi tapılaraq dekabrın 19-da Daşkəsən rayon Şəhidlər xiyabanında dəfn edilib.

Çavuş Rüfət Sadıqov Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərdiyinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Şəhidlik zirvəsinə yüksələnlərin ömür yolu şərəfli və örnək sayılır. Azərbaycan torpaqları erməni daşnaklarının təcavüzünə məruz qalandan bu günə kimi xalqımızın vətənpərvər övladları, yaşından asılı olmayaraq, ana Vətənin harayına səs verib, ölümün gözünə dik baxıblar.

Bu gün şəhid ağrısı hər birimizin ağrısıdır. Bir gözü qələbənin qüruruyla parlayan xalqın bir gözü şəhidinə ağlayır.

Tərifə ana kövrəkliklə söz açdı şəhid övladından: "Mən oğlumla fəxr edirəm. Vətənimə, xalqıma layiqli övlad böyütmüşəm. Rüfət çox vətənpərvər, torpağını, xalqını sevən qeyrətli bir oğul idi. Əsgəri xidmətini başa vurduqdan sonra ordu sıralarında xidmətini davam etdirmək istədiyini bildirdi. Ailə böyüklərinin xeyir-duası ilə xidmətə başladı. Ən böyük arzusu torpaqlarımızın düşmən tapdağından azad olunmasını, üçrəngli bayrağımızın Qarabağda dalğalanmasını görmək idi. Bu gün balamın ürəyinin üstündə gəzdirdiyi üçrəngli müqəddəs bayrağımız işğaldan azad edilən torpaqlarımızda, şəhərlərimizdə dalğalanır...".

Şanlı Azərbaycan Ordusunun böyük şücaəti, döyüş bacarığı, yenilməzliyi və böyük qalibiyyəti sayəsində indi üçrəngli bayrağımız Qarabağda dalğalanır. Bu, ədalətin bərpası, ordumuzun düşmənə verdiyi ən sarsıdıcı həyat dərsi, düşməndən alınmış ən ağır intiqam oldu.

Rüfət kimi qardaş itirən İradə deyir ki, düşünəndə ki, qardaşım Vətən, torpaq uğrunda şəhid olub, müqəddəs bir məqama yüksələrək ölümsüzlük qazanıb, ürəyimə rahatlıq çökür. Mənim qardaşım vətənpərvər, mehriban, qayğıkeş bir insan idi. Onun kimi igid bir qardaşım olduğu üçün fəxr edirəm.

Bacısı Fəridə də qardaşı ilə bağlı xatirələrindən, onun qorxmazlığından, cəsurluğundan danışaraq bildirdi: "Düzdür, mənim üçün ağırdır, çox çətindir, amma o qədər də qürurlu və şərəflidir. Çünki qardaşım şəhidlik zirvəsinə ucalıb. Qardaşımla fəxr edirəm. O, bu şərəfli ölümü ilə ölümsüzlüyü qazandı. Mənim qardaşım heç zaman ölməyəcək, hər zaman yaşayıb və yaşayacaq".

"Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı canı ilə, qanı ilə qazanmayan xalq hər vaxt kölə kimi gözüqıpıq olar" - deyiblər. Qürurluyuq. Çünki düşmənə layiqli cavab verən igid oğullarla eyni Vətənin vətəndaşıyıq, qalibiyyətini bütün dünyaya bəyan edən bir xalqın nümayəndəsiyik.

Şəhidlik əbədiyyətdir. Hər birimiz şəhidlərimizi əzizimiz bilirik, xatirələrini həmişə ehtiramla yad edirik. Şəhidlərimiz qəlbimizdədir, onlar əbədiyyən ürəklərdə yaşayacaqdır....

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Dəmir günbəz" sistemi



İsrailin hərbi texnikası dünyada ən güclü və müasir texnikalardan sayılır. Bu müasir texnikalardan biri də İsrail şirkətləri "Rafael Advansed Defence Systems" və "İsrael Aerospace İndustries" tərəfindən hazırlanmış hava hücumundan müdafiə sistemi olan "Dəmir günbəz"dir. Əsasən qısa mənzilli raket və 155 mm-lik artilleriya mərmilərini zərərsizləşdirilmə təyinatlı "Dəmir günbəz"in uçuş məsafəsi 70 kilometrə qədərdir.

"Dəmir günbəz" sistemi silahlanmaya 2011-ci ildə qəbul edilib və yaxın radiuslu raket və artilleriya zərbələrinin qarşısını almaq üçün istifadə edilir. Sistem gecə və gündüz, müxtəlif hava şəraitlərində bir neçə təhlükəyə eyni vaxtda cavab verə bilir. Bu kompleksin mühüm üstünlüklərindən biri də aşağı hündürlükdə hərəkət edən raketləri məhv edə bilməsidir.

Sistem üç əsas komponentdən - aşkarlama və izləmə radarından, döyüş idarəetmə və komanda məntəqəsindən, raket atəş vahidindən (atıcı qurğu elektro-optik sensorlarla və "Rafael" şirkəti tərəfindən istehsal olumuş yüksək manevrlik qabiliyyətinə malik "Tamir" "yer-hava" tipli raketlərlə təchiz olunub) ibarətdir.

Hər bir atıcı qurğu 20 raketdən ibarət olur. Raketlərin uzunluğu 3000 mm, diametri 160 mm, çəkisi 90 kiloqramdır. Atəş uzaqlığı 4 kilometrdən 70 kilometrə qədərdir.

"Dəmir günbəz" müdafiə sistemi gözlənilən təhlükəni aşkarlamaq üçün EL-M-2084 radar sistemi ilə təchiz edilib. Bu radar raketin hədəf aldığı yeri və onun hərəkət trayektoriyasını müəyyənləşdirir. Radar vasitəsilə əldə olunan məlumatlar sayəsində döyüşü idarəetmə məntəqəsi hədəfin müəyyən edilmiş ərazi üçün təhlükə yaradıb-yaratmadığını müəyyənləşdirir. Təhlükə aşkar edilərsə, "Tamir" raketi ilə hədəf müəyyən olunmuş əraziyə çatmadan məhv edilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan komandası birinci MDB Oyunlarının səkkizinci günündə yeddi medal qazanıb

Rusiyanın Kazan şəhərində keçirilən birinci MDB Oyunlarının səkkizinci günündə komandamız yeddi medalla başa vurub.

Cüdoçularımız qazandıqları bu medalların 2-si qızıl, 1-i gümüş, 4-ü bürüncdür. Belə ki, Səbinə Əliyeva (52 kq) və Rövşən Əliyev (60 kq) bütün rəqiblərini məğlub edərək çempion olublar. Əhməd Yusifov (60 kq) gümüş, Camal Feyziyev (+100 kq), Şəfəq Həmidova (48 kq), Elçin Hüseynov (66 kq) və Murad Fətiyev (81 kq) bürünc medallara sahib olublar.

Bununla da komandamızın birinci MDB Oyunlarında qazandığı medalların sayı 46-ya çatıb. Medalların 13-ü qızıl, 10-u gümüş, 23-ü bürüncdür.

## "Qarabağ" - "Bazel" oyunu Bakı Olimpiya Stadionunda keçiriləcək



UEFA Konfrans Liqasının qrup mərhələsinin birinci turu çərçivəsində keçiriləcək "Qarabağ" - "Bazel" (İsveçrə) oyununun stadionu dəyişdirilib.

Matç daha əvvəl nəzərdə tutulduğu kimi Tofiq Bəhramov adına Respublika stadionunda deyil, Bakı Olimpiya Stadionunda oynanılacaq. Buna səbəb Respublika stadionunun ot örtüyünün istənilən səviyyədə olmamasıdır.

"Qarabağ" - "Bazel" görüşü sentyabrın 16-da saat 20:45-də başlayacaq.

## Cüdoçumuz Avropa çempionatında gümüş medala sahib olub




Südoçumuz Aydan Vəliyeva Lüksemburqda keçirilən yeniyetmələr arasında Avropa çempionatında gümüş medala sahib olub.

Qadınlar arasında 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Aydan Vəliyeva finalda rusiyalı İrena Xubulovaya uduzaraq yarışı ikinci sırada başa vurub.

Sentyabrın 11-dək davam edəcək Avropa çempionatına 43 ölkədən 350-dən çox cüdoçu qatılıb.

## Ümumdünya Şahmat Olimpiadası: Komandamız Moldova yığmasına böyük hesabla qalib gəlib




İkinci onlayn Ümumdünya Şahmat Olimpiadasının top divizionunda Azərbaycan komandası növbəti üç oyununu keçirib.

B qrupunda mübarizə aparan komandamız günün sonuncu qarşılaşmasında Moldova yığması ilə üz-üzə gəlib. Şahmatçılarımız rəqibi 5:1 hesabı ilə məğlubiyyətə uğradıblar.

Qeyd edək ki, ilk görüşdə Belarus yığmasına 3:2 hesabı ilə qalib gələn təmsilçilərimiz sonrakı oyunda Hindistan komandasına uduzublar - 2:4.

Başa çatan 6 turun nəticələrinə əsasən, Azərbaycan komandası 7 xalla dördüncü sırada qərarlaşıb. Hindistan 11 xalla turnir cədvəlinə liderlik edir.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik-leytenant Əliyev Vahid Tələt oğluna məxsus MN № 0039912 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktor vəzifəsini icra edən | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 562 Nüsxə 4009 |